# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 05-06-07-08 (7629-7630-7631-7632) * 5 sentyabr 2025-ci il * İctimai-siyasi qəzeti * Qiyməti: 60 qəpik

# Millətin heysiyyətini ucaldan, mədəniyyətimizi dünyaya tanıdan Birinci xanım



*O, ölkəmizin hər yerdə haqq səsi, köklü mədəniyyətimizin gerçək hamisi, Azərbaycan qadınının əsl və əsil siması, düşmənin haqqımızda uydurduğu yalançı və qara mifləri zamanla kökündən yox edən, dünyada bizi olduğumuz kimi tanıtdıran, yəni, zəngin dəyərlərə və tarixə malik olan millət kimi qəbul etdirən bacarıqlı dövlət xadimi, siyasətçidir. Azərbaycanın Birinci vitse-prezidenti, Birinci xanım, Heydər Əliyev Fondunun prezidenti, İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın bu titulları və vəzifələrinin hər biri əlbəttə ki, xalqımıza xidmətə həsr olunub. O, xalqımıza qarşı haqsızlığa dözməyərək UNESCO-nun xoşməramlı səfiri adından imtina edən zaman yenə də bu yolla öz millətinin qeyrətli qızı olduğunu sübut etdi və Azərbaycana qüsursuz xidmət etmək yolunu üstün tutdu. Bu addımı ilə dünya və o cümlədən də UNESCO-ya göstərdi ki, onun üçün xalqının, vətəninin mənafeyi və heysiyyəti hər bir uca tituldan və vəzifədən daha üstündür və əzizdir.*

Şübhəsiz ki, Azərbaycan Anası müqəddəs addır. Mehriban xanım həm də qayğıkeş Azərbaycan Anasıdır. Özü də o, təkcə öz övladlarının deyil, hər kəsin, özəlliklə də möhtacı olanların hər birinin Anasıdır. Bu illərdə onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu imkansız insanlara maddi-mənəvi dəstək olub, ağır xəstələrin sağalmasına köməklik göstərib, şəhid ailələrinə, qazilərə öz qayğısını əsirgəməyib. Mehriban xanımın təşəbbüsü ilə uşaq evləri, məktəblər, məscidlər tikilib və ya əsaslı təmir olunub. Vandal ermənilərin viran qoyduğu, işğaldan azad olunmuş şəhər və kəndlərimizdə Heydər Əliyev Fondunun gördüyü quruculuq işləri tarix boyu unudulmayacaq. Çünki bu işlər mükəmməldir və vətənə xidmətin parlaq nümunəsidir.

Mən həm də Mehriban xanımın mədəniyyətimiz qarşısındakı xidmətləri barəsində fikir bildirmək istəyirəm. Bilirsiniz, Azərbaycanın tarixi çox qədim, mədəniyyəti, musiqisi, mətbəxi, ümumiyyətlə dəyərləri çox zəngindir. Ancaq o da faktdır ki, dünya bizi bu mənada yetərincə tanımırdı. Obrazlı desək, o zənginlik qiymətli kitablar kimi rəflərdə idi. Mehriban xanım o zənginliyi rəflərdən endirib dünyaya nümayiş etdirdi. Dünyanın dörd bir tərəfində onun təşəbbüsü ilə Azərbaycanı bu anlamda tanıdan tədbirlər heç şübhəsiz ki, çox böyük effekt verdi. Yumşaq gücdən məharətlə istifadə edən Heydər Əliyev Fondu mənfur düşmənin bizi vəhşi xalq kimi təqdim edən, illərlə apardığı qara propaqandaya kökündən, sarsıdıcı zərbə endirib, onu zəiflədib, zamanla yox etdi. Bunlar onun təkcə bu gün deyil, tarix və gələcək nəsillər üçün misilsiz xidmətləridir və əsla unudulmayacaq. II Qarabağ müharibəsi, Vətən savaşı apardığımız o şanlı günlərdə ermənilər nə qədər çalışsalar da bizi dünyada vəhşi xalq kimi tanıtdıra bilmədilər. Sadəcə bacarmadılar. Çünki o zamana qədər Heydər Əliyev Fondu, dövlətimiz bu qara propaqandaya böyük və sarsıdıcı zərbələr endirmişdi. Daha dünyada heç kim erməninin və rüşvətxor lobbiçilərin uydurduğu “onlar vəhşi müsəlman türklərdir” sözlərini ciddiyə almadı. Bu ona görə mümkün oldu ki, ona qədər çox böyük işlər görülmüş və dünya bizi yaxşı tanımışdı. Mehriban xanım hər zaman Millətimizin Lideri, cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşıdır. Mən çox xoşbəxtəm ki, xalqımızı, Azərbaycanımızı dünyada tanıdan tədbirlərin bir çoxunun canlı şahidi olmuşam. Yaxşı xatırlayıram, Fransanın Konyak şəhərində Məhsəti Gəncəvinin abidəsinin açılış mərasimində bir fransız yazıçısı və ziyalısı Heydər Əliyev Fondunun, əlbəttə ki, onun prezidenti Mehriban xanımın təşəbbüsü ilə fransızcaya tərcümə olunmuş Məhsəti xanımın rübailərini ucadan oxudu və ardınca da bu sözləri dedi: “Azərbaycan şairəsi yaşadığı dövrdə bu qədər dərin, fəlsəfi məzmunu zəngin olan əsərlər yaradıb. Biz fransızlar siz azərbaycanlılardan çox-çox gec, yüzillər sonra bu dəyərlərə gəlib çatmışıq. Siz gerçəkdən də böyük xalqsınız. Sizin bu mənada qürur duymağa haqqınız çatır. Sizi təbrik edirəm!”

“Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri” layihəsi Heydər Əliyev Fondunun şah əsər mahiyyətli layihələrindən biridir ki, bizi dünyaya böyük dəyərlərə malik millət kimi tanıtdı. Bütün dünya azərbaycanlılarını... Bu gün bu böyük xidmətləri bu xalqa göstərən Mehriban xanım Əliyevanın doğum günüdür. Dünyanın dörd bir tərəfində yaşayan hər bir azərbaycanlının, o cümlədən milliyyətindən, irqindən, dini mənsubiyyətindən asılı olmayaraq insanların dərin rəğbətini, hörmətini, sevgisini qazanmış Azərbaycanın böyük dövlət xadimi Mehriban xanım Əliyevaya bu gün doğum günü münasibətilə təbriklər gəlir. Əlbəttə, biz də Mehriban xanıma ən səmimi təbriklərimizi çatdırır, möhkəm cansağlığı, vətənə, xalqa və insanlığa xidmət yolunda daha böyük uğurlar, səadət dolu günlər arzulayırıq. Allah Sizi qorusun!



***Elnar Məmmədli, politoloq***

# Rayon İcra Hakimiyyətinin başçısı səyyar qəbul-görüşlər keçirib




## Dondar Quşçu kəndi

Dondar Quşçu kənd tam orta məktəbin binasında keçirilən səyyar qəbul-görüşdə rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri iştirak ediblər.









Səyyar qəbula iştirak edən Dondar Quşçu kənd sakinləri onları narahat edən müraciətləri səsləndiriblər. RİH başçısı Məmməd Məmmədov müraciətlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə lazımi tapşırıqlar verib.

Kənd sakinləri vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində görülən işlərə görə ölkə Prezidenti cənab İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.



## Yuxarı Öysüzlü kəndi

Məmmədqara Məmmədov adına Yuxarı Öysüzlü kənd tam orta məktəbində keçirilən səyyar qəbul-görüşdə rayonun hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri iştirak ediblər.









Səyyar qəbula iştirak edən Yuxarı Öysüzlü kənd sakinləri onları narahat edən müraciətləri səsləndiriblər. RİH başçısı Məmməd Məmmədov müraciətlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə lazımi tapşırıqlar verib.

Kənd sakinləri vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində görülən işlərə görə ölkə Prezidenti cənab İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.



## Əlibəyli kəndi

Əlibəyli kəndində keçirilən səyyar qəbul-görüşdə rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Səyyar qəbula gələn kənd sakinləri onları narahat









edən müraciətləri səsləndiriblər. RİH başçısı Məmməd Məmmədov müraciətlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə lazımi tapşırıqlar verib.

Əlibəyli kənd sakinləri təşkil olunan səyyar qəbulların vacibliyini qeyd etmiş, göstərilən dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürlərini ifadə ediblər.

# Ədalət Partiyasının IX qurultayı

**17 may 2025-ci ildə Ədalət Partiyasının IX qurultayı keçirilmişdir. İlk öncə Azərbaycan Respublikasının dövlət Himni səsləndirilmişdir. Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sədri Mütəllim Rəhimli məruzə ilə çıxış etmişdir.**





Hörmətli Qurultay nümayəndələri,

Əziz Ədalətçilər,

Dəyərli qonaqlar,

Sizləri Ədalət Partiyasının IX Qurultayında salamlamaqdan məmnunuq.

İlkin olaraq onu qeyd etmək istəyirəm ki, Ədalət Partiyasının qurucusu və lideri İlyas İsmayılovun vəfatından sonra partiyamızda bir boşluq mühiti yaranmışdır. Bu vəziyyət təbiidir və hər bir liderin yoxluğu özündən sonra müəyyən təlatümlər yaradır. İlyas müəllimin dünyasını dəyişməsindən istifadə edərək, partiya daxilində taktiki siyasi oriyentasiyada fərqli mövqe tərəfdarları öz iddialarını gerçəkləşdirmək fürsətləri əldə etmişdilər. Məlumdur ki, yetkin siyasi partiya daxilində bu cür siyasi qruplaşmaların olması normal bir haldır. Lakin onların fəaliyyəti heç bir halda partiya Nizamnaməsini pozmamalı, əxlaq qaydalarını, etik münasibətləri zədələməməlidir. Təəssüf ki, bizim partiyada olan bu arzuolunmaz vəziyyət daxili münasibətlərə də mənfi təsir göstərdi. Nəticədə İlyas İsmayılovun formalaşdırdığı siyasi xəttin tərəfdarı olan çoxsaylı partiya üzvləri fəal şəkildə həmin qrupun hərəkətlərini təqdir etmədiklərini ortaya qoydular və onlara qarşı ciddi müqavimət göstərdilər. Bu zaman mərhum sədrimiz İlyas İsmayılovun bizə miras qoyduğu əxlaqa və mili-mənəvi dəyərlərimizə söykənən və partiya Nizamnaməsinə əsaslanan partiyadaxili münasibətlər hər zaman gözlənilmişdir. Lakin təəssüf ki, həmin 5 nəfər bəyanat verərək Ədalət Partiyasının sıralarını tərk etmişdir.

İlyas İsmayılovun yoxluğundan sonra Ədalətçilər bir neçə məsələdə prinsipial mövqe, əzmkarlıq və siyasi iradə nümayiş etdirdilər ki, bu da partiyanın yaxşı gələcəyinə inamı artırır.

Birincisi, Ədalət Partiyasına sadiqliklərini sübut etdilər.

İkincisi, partiya maraqlarının şəxsi maraqlarından xeyli yüksəkdə dayandığını göstərdilər.

Üçüncüsü, partiyanın varlığına təhlükə zamanında birlik nümayiş etdirmək imkanına malik olduqlarını təsdiq etdilər.

Dördüncüsü, siyasi kombinasiyaları kifayət qədər təhlil edə bildiklərinə görə, aldanmadılar. Əksinə, oyun oynayanlara tutarlı cavab verdilər.

İlyas İsmayılovun vəfatından sonra Ədalət partiyasını istəməyənlər onun dağılacağı, fəaliyyətinin dayandırılacağı, ləğv ediləcəyi haqqında çoxsaylı şayiələr yaymağa başladılar. Bizim partiyamızı istəməyənlər İlyas İsmayılovun əvəz edilə bilməyəcəyini əsas gətirərək,



özlərinin heç bir məntiqə, qaydaya, əxlaqa sığmayan düşüncələrinə bəraət qazandırmağa çalışırdılar. Bu adamlar unudurlar ki, Ədalətçilərin İlyas İsmayılovu əvəz etmək kimi bir istək və fəaliyyətləri yoxdur. Çünki dünyada hər bir insan əvəz edilməzdir. Lakin İlyas İsmayılovdan sonra Ədalət Partiyasına rəhbərlik edə biləcək xeyli sayda üzvlərimiz var və onların formalaşmasında İlyas müəllimin müstəsna xidmətləri olub. Bütün bunlar isə partiyamızın zənginliyindən xəbər verir.

Ötən bir ay müddətində partiyanın idarə olunmasında Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi partiyadaxili ənənələrə sadiqlik nümayiş etdirmişdir. IX Qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi aprelin 19-da 9 nəfər heyətdən ibarət yaradılmışdır. Bu müddət ərzində Təşkilat Komitəsi 10 iclas keçirmiş və Qurultaya hazırlıqla bağlı məsələləri həll etmiş, partiyanı ləkələməyə çalışan bütün tərəflərə layiqli cavablar vermişdir.

Fəaliyyətimiz dövründə rayon təşkilatlarının sədrlərinin təmsil olunduğu votsap qrupu yaradılaraq, baş verən hadisələr operativ olaraq birgə müzakirə edilmişdir.

Təşkilat Komitəsi mediada müvafiq təbliğat kampaniyasını təşkil etmiş, ölkə mediasının diqqət mərkəzinə düşən bir mətbuat konfransı keçirmişdir.

Təşkilat Komitəsinin üzvlərinin dəstəyi ilə 56 rayon təşkilatından 54-də konfranslar keçirilmiş, Qurultaya nümayəndələr seçilmişdir. Sizlərin qarşısında, Təşkilat Komitəsinin üzvləri Rahim Nuriyev, Çingiz Abbasov, İsaq Hacıyev, Elman Bağırov, Məhərrəm Mustafa, Aftandil Məmmədov, Şaban Motuxov, Abbas Hünbətliyə, eyni zamanda, partiya funksionerlərindən Eldəniz Xəlilov, Müşfiq Ələkbərov, Aydın Abbasbəyli, Rafiq Əsədov, Məcid Məmmədov, Elşad Qafarov, Elxan Zeynalov, Rüstəm Vəliyevə göstərdikləri qətiyyətə, cəsarətə və əzmkarlığa görə təşəkkür edirəm.

Ədalət Partiyası artıq bütün gərginlikləri, çəkişmələri arxada qoyub. Partiyamız köhnəlmiş və ona ziyan vura biləcək hər cür nüansları inkar etməkdədir. İnkar bütün inkişaf prosesində labüd və qanunauyğun zərurətdir. Bu inkar partiyamızın inkişafının sonrakı gedişi üçün əlverişli şərait yaradacaq. İnkar prosesində inkişaf üçün qeyri-ümidverici, köhnəlmiş, hadisənin sonrakı inkişafını ləngidən tərəflər, hissələr sıradan çıxır, eyni zamanda, köhnədə olan bütün müsbət cəhətlər saxlanılır. Biz, bax, inkişafın bu mərhələsini yaşadıq və artıq yeni inkişaf pilləsinə qədəm qoyduq. Silkələndik, durulduq, yeniləndik və təzələndik! Bununla da demək olar ki, Ədalət Partiyası dünyada baş verən yeni çağırışlara adekvat cavab verə biləcək bir çəkidə siyasi fəaliyyətini davam etdirmək əzmindədir.

Hörmətli Qurultay iştirakçıları,

Ölkəmizdə 2020-ci il 44 günlük müharibədən sonra yeni münasibətlər sistemi formalaşmış, çağırışlar meydana çıxmışdır. 2023-cü il sentyabrın 19-da 23 saatlıq antiterror əməliyyatının nəticəsində, Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra, ilk dəfə suverenliyinə qovuşmuşdur. 30 ildən artıq bir müddətdə ölkəmizi inkişaf etməyə qoymayan, ağır bir yük kimi çiyinlərimizdə daşıdığımız Qarabağ problemi, nəhayət ki, ordumuzun gücü sayəsində özünün ədalətli həllini tapdı. Problemin həllinə ölkəmizdə formalaşmış milli birlik mühiti əhəmiyyətli təsir göstərdi. İqtidar, müxalifət və bütövlükdə cəmiyyət eyni hədəf uğrunda vahid mövqedən çıxış etməyi bacardı. Ədalət Partiyası da bu prosesdə daim milli maraqlarımızın keşiyində dayanmışdır.

Artıq Azərbaycan Respublikası özünün ərazi bütövlüyü problemləri ilə məşğul olmaq məcburiyyətindən azad olub və regional güc olaraq çıxış etməkdədir. Bu, həm də onun geosiyasi mövqeyindən və zəngin enerji resurslarına sahib olması ilə bağlıdır.

Nəzərə almaq lazımdır ki, XXI əsrdə qlobal siyasi, iqtisadi və təhlükəsizlik sistemində baş verən dərin dəyişikliklər yeni dünya düzəni anlayışını gündəmə gətirmişdir. Bu anlayış, əsasən, ABŞ-nin dominant mövqeyinin zəifləməsi, çoxqütblülüyün yüksəlişi, yeni texnologiyaların təsiri və regional güclərin rolunun artımı ilə əlaqədardır.



Belə ki, ABŞ və Qərb blokunun nüfuzunun nisbi azalması, Çin, Rusiya, Hindistan, Türkiyə, İran kimi dövlətlərin beynəlxalq münasibətlərdə təsirinin artması, NATO, Avropa Birliyi, BMT kimi qurumların rolunun yenidən müzakirə olunması yeni dünya düzəninin əsas xüsusiyyətlərindən hesab olunur.

Süni intellekt, kibermüharibə, kosmik texnologiyalar və rəqəmsal iqtisadiyyatın geosiyasətə təsiri, "yumşaq güc"ün (media, sosial şəbəkələr, kiberdiplomatiya) əhəmiyyətinin artması texnoloji və informasiya müharibələrini doğurmuşdur.

Yaşıl enerjiyə keçid və neft-qazın təsirinin nisbi azalması, regional ticarət bloklarının (Türk Dövlətləri Təşkilatı, BRIKKS, Şanxay Əməkdaşlıq Təşkilatı) güclənməsi, ABŞ dollarına alternativ valyuta sistemlərinin yaranması enerji və iqtisadi dəyişikliklər kimi xüsusiyyətləri meydana çıxarmışdır.

Ənənəvi müharibələrdən hibrid müharibələrə keçid, terrorizm, miqrasiya və iqlim dəyişikliyi kimi transsərhəd problemlər təhlükəsizlik paradiqmalarının dəyişməsini şərtləndirmişdir.

Azərbaycan, Türkiyə, Pakistan kimi ölkələrin yeni strategiyaları, Rusiya-Çin yaxınlaşması və "Avrasiyaçılıq" ideyalarının meydana çıxması ilə regional ittifaqların artımı müşahidə olunmaqdadır.

Yeni dünya düzənində Azərbaycan Balanslaşdırılmış xarici siyasət (Rusiya-Qərb-Çin-Türkiyə arasında tarazlıq) qurmalıdır, enerji və nəqliyyat dəhlizləri vasitəsilə geostrateji əhəmiyyətini qorumalıdır, Hərbi və texnoloji inkişafa investisiya etməlidir, Türk dünyası ilə inteqrasiya və beynəlxalq hüquq platformalarında aktiv diplomatiya yürütməlidir. Çünki Yeni dünya düzəni qeyri-sabit, çoxqütblü və rəqabətli mühitdir. Azərbaycan üçün əsas vəzifə - öz suverenliyini qoruyaraq, dinamik dünyada maraqlarını effektiv təmsil etməkdir.

Yeni dünya düzənində Azərbaycan Respublikası Milli Müstəqillik və Suverenliyin Qorunması üçün səylərini davam etdirməlidir. Belə ki, Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün güclü dövlətçilik siyasəti yürütməlidir. Heç bir beynəlxalq təşkilat və ya qüvvənin daxili işlərə qarışmasına icazə verilməməlidir.

Türkiyə və Mərkəzi Asiya ölkələri ilə strateji tərəfdaşlığı gücləndirmək məqsədilə türk dünyası ilə inteqrasiya prosesini davam etdirməlidir.

"Cənub qaz dəhlizi" və "orta dəhliz" kimi layihələr vasitəsilə Avropanın enerji təhlükəsizliyində rolunu gücləndirməli, Zəngəzur dəhlizi ilə regional nəqliyyat və ticarət əlaqələrini diversifikasiya etməklə enerji və nəqliyyat diplomatiyasının artırılmasına nail olmalıdır.

**(Davamı səh. 4-də)**

# Ədalət Partiyasının IX qurultayı

**(Əvvəli səh. 3-də)**

Ermənistanla sülh müqaviləsinin imzalanması üçün diplomatik təşəbbüsləri dəstəkləməklə yanaşı hərbi potensialının davamlı modernləşdirilməsi, kibertəhlükəsizlik və asimmetrik təhdidlərə qarşı mübarizə sahəsində gördüyü işlərlə təhlükəsizlik strategiyasının modernləşdirilməsini həyata keçirməlidir.



Qeyri-neft sektorunun inkişafı, xarici investisiyaların cəlb edilməsi (xüsusilə Azad Zonalarda), "Smart City" və yaşıl enerji layihələri ilə iqtisadi inkişaf və texnoloji innovasiyalar dəstəklənməlidir.

Azərbaycan yeni dünya düzənində "realist praqmatizm" siyasəti yürütməli, həm regional lider kimi mövqeyini gücləndirməli, həm də qlobal proseslərdə maraqlarını effektiv təmsil etməlidir. Əsas prioritetlər suverenlik, təhlükəsizlik, iqtisadi rifah və beynəlxalq əməkdaşlıq olmalıdır.

Ədalət Partiyası gələcək fəaliyyətində bütün bunları nəzərə alaraq, özünün siyasi fəaliyyətini qurmalı, ideoloji baxışlarına uyğun olaraq inkişafını təmin etməlidir.



Hörmətli Qurultay nümayəndələri,

Son illərdə Azərbaycanda sosial-iqtisadi bərabərsizliyin artması, gənclərin siyasətdə çatışmazlığı və ənənəvi mərkəzçi siyasətlərin sosial problemlərə cavab verməkdə çətinlik çəkməsi, Ədalət Partiyası kimi aktorlar üçün yeni siyasi-ideoloji fəallığı zəruri edir. Biz, yeni dövrdə məhz belə çağırışlara cavab verərək, ölkənin siyasi müstəvisində güclü bir partiyaya çevrilməliyik.

Ədalət Partiyası yarandığından bəri sosial ədalət, iqtisadi bərabərlik və demokratik idarəetmə prinsipləri əsasında fəaliyyət göstərmişdir. Partiyanın gələcək inkişafında sol mərkəzçi ideologiyanın daha açıq şəkildə formalaşdırılması, onun siyasi təsir dairəsini genişləndirə bilər.

Ədalət Partiyası indiyədək fəaliyyətində dövlətimizi və cəmiyyətimizi narahat edən bütün məsələlərlə bağlı ciddi münasibət sərgiləmişdir. Həm qanunvericilik sisteminin təkmilləşdirilməsi, həm idarəçiliyin keyfiyyətinin artırılması, cəmiyyəti narazı salan halların qarşısının alınması məqsədilə mütəmadi olaraq təkliflərlə çıxış etmişdir. Bundan sonra da ənənəsinə sadiq qalacaq Ədalət partiyası aşağıdakı əsas prinsipləri öz fəaliyyətində başlıca meyar kimi əsas götürəcək:

1. Sosial ədalət və bərabərlik prinsipini. İctimai rifahın artırılması, yoxsulluğun azaldılması istiqamətindəki fəaliyyəti ilə cəmiyyətimizin ictimai tələbinə adekvat reaksiya verəcək.



2. İctimai xidmətlərin gücləndirilməsi sahəsində fəaliyyətin qurulması və təkmilləşdirilməsini təşkil etmək. Buraya əsasən pulsuz və keyfiyyətli təhsil, səhiyyə, sosial təminat xidmətlərinin şəffaf, hamıya əlçatan və qanunun tələblərinə uyğun qurulmasının təşkili daxildir. Bu sahədə xüsusilə, boşluqların aradan qaldırılması cəmiyyətimizin gələcək sağlam inkişafı baxımından olduqca əhəmiyyətlidir.

3. İşçilərin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərmək. Əmək qanunvericiliyinin islahatı, minimum əmək haqqının real tələbata adekvatlığının təmin olunması, iş mühitində işçinin qanunla ona verilmiş hüquqlarının qorunması.

4. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, qanunun aliliyinin təmin olunması. Azərbaycanın hər bir vətəndaşı qanun qarşısında bərabər olmalı, dövləti və cəmiyyəti içəridən yeyən korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılmalıdır.



5. Siyasi institutlaşmanı dəstəkləmək. Siyasi institutlaşma cəmiyyətdə sabitlik, nizam-intizam və davamlı inkişafı təmin edir.

6. Ekoloji davamlılıq sahəsində inkişaf etmiş ölkələrin təcrübələrindən yararlanmaqla Azərbaycan xalqının gələcəyinin qarantiya altına alınmasını təmin etmək. Buraya yaşıl iqtisadiyyatın dəstəklənməsi, ətraf mühitin qorunması, yaşıl düşüncənin inkişaf etdirilməsi daxildir.

7. Korrupsiyaya qarşı mübarizə. Ölkədə qanunun aliliyi təmin olunmalı dövləti və cəmiyyəti içəridən yeyən korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılmalıdır.

Bu prinsiplər Ədalət Partiyasının mövcud proqramı ilə uyğun gəlir və partiyanın daha geniş seçici kütləsinə çatmasına kömək edə bilər.

Hörmətli Qurultay nümayəndələri,

Ədalət partiyası öz fəaliyyətində potensial çətinliklər və risklərlə də qarşılaşmaqdadır. Buraya İdeoloji Uyğunsuzluq, İqtisadi Liberalizm Tərəfdarlarının Narazılığı, Rəqib Partiyalarla Rəqabət, Media və Nüfuz Mərkəzlərinin Təzyiqi daxildir. Lakin bütün bunlar Ədalət Partiyasını zəiflədə bilməz. Digər oxşar ideoloji platformaya malik siyasi partiyalarla əməkdaşlığın yaradılması, lazım gələrsə seçki ittifaqlarının qurulması ilə Ədalət Partiyasının öz hədəflərinə çatmasına nail olmaq mümkündür. Ədalət Partiyasının mövcud sosial-iqtisadi problemlərə effektiv cavab vermək və gənc seçici kütləsinin dəstəyini qazanmaq üçün gələcək fəaliyyətində hər zaman uğura aparan yolu seçəcək.



Diqqətinizə görə təşəkkür edirəm!

### Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Əməkdar jurnalist, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədr müavini Elçin Mirzəbəylinin çıxışı

- Hər birinizi salamlayıram!

Qurultayın proseduru daxilində çıxış etmək, hansısa bir məsələyə münasibət bildirmək Qurultay iştirakçılarının iradəsinə təsir kimi qiymətləndirilə bilər. O baxımdan, mən, qısaca həm Ədalət Partiyası, həm də Azərbaycanın siyasi sistemi haqqında öz mülahizələrimi bölüşəcəyəm.

Hörmətli Mütəllim müəllim öz çıxışında 2020-ci ildə başlayan prosesə bağlı danışdı. Mən bir az da əvvələ gedərək, prosesin 2019-cu ildən etibarən başladığını və Azərbaycanda yeni siyasi münasibətlər sisteminin qurulması istiqamətində ciddi addımlar atıldığını xüsusi olaraq vurğulamaq istəyərdim. Elə bundan başlayaraq ölkəmizin tarixində ilk dəfə bizim milli hədəflərə doğru addımladığımız yolda, cüzi istisnalar olmaqla, yeni xarici təsir agentləri istisna olmaq şərtilə, Azərbaycanın milli düşərgəsinin ideoloji baxış bucağından asılı olmayaraq bütün siyasi partiyaların faktiki olaraq vahid bir mövqedə çıxış etdiyini və beləliklə də, Azərbaycan siyasi səhnəsi üçün milli qırmızı sədlərin müəyyənləşdirildiyini xüsusi olaraq qeyd etmək istəyirəm.

Və təbii ki, bu hadisə bizim zəfərimizlə bərabər, Azərbaycanda siyasi düşüncə tərzinin formalaşmasına mühüm töhfə verən addım kimi qiymətləndirilməlidir.

Bu qurultayda şəxsən tanıdığım, sayğı duyduğum, hörmət bəslədiyim, vaxtilə Azərbaycandan kənarda - Sankt-Peterburqda təhsil alan tələbə və aspirantların təhsillərinin davam etdirilməsində SSRİ-nin süqutundan qısa bir zaman kəsiyində şəxsi nüfuzundan istifadə edən, Ədalət Partiyasının qurucusu, hörmətli və şəxsiyyətinə hələ də sayğı duyduğum, qarşımda canlı bir insan dayanırmış kimi hiss etdiyim İlyas müəllimi sayğıyla anıram. Həmin tələbələrin və aspirantların içərisində mən də var idim. Bu baxımdan, düşünürəm ki, İlyas müəllimin qoyduğu irs, ənənə Ədalət Partiyasının bundan sonrakı fəaliyyətində də müstəsna rol oynayacaq. O siyasi xətt ki, sizin tərəfinizdən müəyyənləşdiriləcək və təbii ki, Azərbaycanda çoxpartiyalı siyasi sistemin inkişafına öz töhfəsini verəcəkdir.

Bu məmləkət, bu ölkə bizim hamımızındır. Necə ki, vaxtilə, önəmli bir zaman kəsiyində bir arada olduğumuz kimi - həm 44 günlük müharibədə, həm antiterror əməliyyatları çərçivəsində, həm də daha sonralar Azərbaycana qarşı həyata keçirilən haqsız təzyiqlərə münasibətdə sərgilədiyimiz mövqedə bir yerdə olmuşduq, bundan sonra da siyasi rəqabət detalları, prinsipləri öz yerində qalmaqla, milli hədəflərimiz naminə bir yumruq kimi birləşəcəyik.

Qurultayın işinə uğurlar diləyirəm.

**(Davamı səh. 5-də)**

# Ədalət Partiyasının IX qurultayı

## *Qurultayda qonaqlar və partiya üzvləri çıxış etmişlər*



(Əvvəli səh. 4-də)

### Azad Vətən Partiyasının sədri Akif Nağının çıxışı

- Hörmətli Qurultay nümayəndələri, qonaqlar, dostlar!

Hər birinizi salamlayıram. Sizi bu gözəl mərasim münasibətilə təbrik edirəm. Zala baxıram, çox dəyərli simalar görürəm. Qurultayın nəticələri partiya üçün, millətimiz və dövlətimiz üçün xeyirli-uğurlu olsun!

Bu partiya İlyas İsmayılovun adı ilə bağlıdır. Bu gün İlyas müəllimi anmamaq mümkün deyil. İlyas müəllim təkcə Ədalət partiyası üçün yox, Azərbaycanın ictimai-siyasi mühitində özünəməxsus, ləyaqətli yer tutan bir insan idi. Ən azından, 25-30 il ərzində ən müxtəlif situasiyalarda - ictimai-siyasi xəttin tələblərinə uyğun olaraq müxtəlif qurumlar, birliklər, müqavimət hərəkatları yaradıldı və fəaliyyət göstərdi. Bunların hamısının içərisində biz İlyas müəllimin böyüklüyünü, ağsaqqallığını, əqidəli bir insan olduğunu görmüşük. İnanıram ki, bu gün bura toplaşan insanlar onun xatirəsini əziz tutaraq, İlyas müəllimin xarakterinə, xasiyyətinə uyğun olaraq xəttini davam etdirəcəklər.



Qurultayın təşkilində hiss elədim ki, İlyas müəllimə məxsus olan dəqiqliyi siz davam etdirəcəksiniz. Qurultay vaxtında başlamışdır. Bizdə hansısa qurultay, hansısa iclas çox nadir hallarda vaxtında başlayır.

Azərbaycanda xoşagəlməyən bir ənənə də yaranmışdır. Partiyanın, yaxud da hansısa təşkilatın sədri həyatdan gedəndən, yaxud kənara çəkiləndən sonra həmin qurum, partiya fəaliyyətini dayandırır. Şükürlər olsun ki, bu qədər insan bir yerdə İlyas İsmayılovun yolunu davam etdirir.

Hörmətli Mütəllim müəllim də qeyd elədi ki, bu, İlyas müəllimin xidmətidir ki, özündən sonra belə liderlər yetişdirib ki, o liderlər İlyas müəllimin fəaliyyətini layiqincə davam etdirirlər.

Biz tərəf kimi çıxış etmək istəmirik. İstədiyimiz odur ki, müxalifət sağlam olsun. Ədalət Partiyası bu gün Azərbaycanda gedən sağlam partiyalarla birlikdə proseslərdə fəal iştirak etsin. Qurultayda kim sədr seçiləcəksə, biz də onunla bir yerdə bu yolu davam etdirməyə hazırıq. Mütəllim müəllim sizin kursunuzu dedi - sol mərkəzçi. Bizim partiyanın - AzadAzərbaycan Partiyasının da rəsmi kursu proqramımızda sol mərkəzçi şəklində formalaşdırılıb. Bizim solçu olmağımız ondan ibarətdir ki, bütün sosial problemlər, sosial ədalət bizim diqqət mərkəzimizdədir. Amma dövlətin maraqları ortaya gələndə, mərkəzçi prinsip ortaya çıxır ki, biz dövlətçilik mövqeyindən çıxış edirik. Partiyaların içərisində o sahədə bloklaşma da getməlidir, kimlər sol mərkəzçidir, kimlər sağ mərkəzçidir, kimlər hansı yöndədir... Bütün bunlara görə hesab edirəm ki, bizim partiyalarımız arasında yaxşı bir əməkdaşlıq, bloklaşma olacaq ki, bir yerdə müəyyən məsələləri həll edək.



Sizə uğurlar arzulayıram!

### Azərbaycan Milli İstiqlal Partiyasının Mərkəzi Şurasının sədri Rəşad Bayramovun çıxışı

Hörmətli Qurultay nümayəndələri!

Hər birinizi həm öz adımdan, həm də Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadənin adından təbrik edirəm! Arzuxan bəy hazırda ölkədə olmadığı üçün Qurultayda iştirak edə bilmir. Salamlarını sizə çatdırmağı mənə həvalə edib.



Bu gün IX Qurultayını keçirən Ədalət Partiyası yeni bir dövrə qədəm qoyur. İlyas müəllimin yoxluğunda bu məsuliyyəti daşımaq çətin olacaq, çünki İlyas İsmayılov təkcə Ədalət Partiyası daxilində deyil, eləcə də, cəmiyyətdə birmənalı şəkildə qəbul olunan və hər kəs tərəfindən hörmət edilən bir şəxsiyyət idi. Mən tamamilə əminəm ki, sizlər onun təməlini qoyduğu, qurucusu olduğu partiyanın bundan sonra da fəaliyyətinin layiqincə davam etdirilməsi üçün əlinizdən gələn bütün işləri görəcəksiniz və bu məsuliyyəti layiqincə daşıyacaqsınız. İlyas müəllimin Azərbaycan Milli İstiqlal Partiyasının - yəni ilk dövlət qeydiyyatından keçən siyasi partiyanın qeydə alınmasında müstəsna xidmətləri olub və bu gün də bizim partiyanın 1 nömrəli şəhadətnaməsində məhz İlyas müəllimin imzası dayanır. O zaman Ədliyyə naziri idi.

İndi yeni və mühüm bir dövrdür, sınaqlar olacaq. Təbii ki, çətinliklərlə də rastlaşacaqsınız. Amma mən tamamilə əminəm ki, bu gün bu zalda oturanlar, Ədalət Partiyasının rayon təşkilatlarında təmsil olunan insanlar, eləcə də, yeni seçiləcək şəxslər və yeni formalaşacaq seçkili qurumlar öz vəzifəsinin öhdəsindən kifayət qədər layiqli şəkildə gələcəklər.

Hər birinizə uğurlar arzulayır və qüdrətli, güclü Azərbaycan uğrunda mübarizədə, fəaliyyətinizdə daha da irəli getməyinizi arzulayıram.

### Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədlinin çıxışı

- Hörmətli xanımlar və bəylər!

Sizi bugünkü Qurultay münasibətilə təbrik edirəm! Vətəndaş Həmrəyliyi Partiyasının lideri Sabir bəyin salamlarını sizə çatdırıram.

Ədalət Partiyası Vətəndaş Həmrəyliyi Partiyasına doğma siyasi təşkilatlardan biridir. Biz iki dönəm, iki seçki bir yerdə, bir blokda seçkilərə qatılmışıq. Ədalət Partiyasının bir çox funksionerləri ilə bir yerdə işləmişik.

Ədalət Partiyası Azərbaycanın həm ləyaqətli, həm böyük şəxsiyyətlərindən biri olan İlyas İsmayılovun sizə əmanət etdiyi qurumdur. Mən inanıram ki, İlyas müəllimin nəzərdə tutduğu gələcək Azərbaycanın qurulması prosesində iştirakınızı təmin edən, Ədalət Partiyasının ideoloji-siyasi xəttinə uyğun yeni rəhbərlik seçəcəksiniz. Vətəndaş Həmrəyliyi Partiyası olaraq hər zaman sizinlə əməkdaşlıq eləməyə hazırıq.

Sizə uğurlar arzulayıram.

### Ümid Partiyası sədrinin 1-ci müavini Ənvər Ağazadənin çıxışı

- Hörmətli Qurultay nümayəndələri!

Mən də şəxsən öz adımdan və Ümid Partiyasının sədri İqbal Ağazadənin adından sizi bu mötəbər tədbiriniz münasibətilə təbrik edirəm və uğurlar arzulayıram!

Azərbaycanda siyasi partiyaların formalaşması həmişə lider ətrafında olub. Sizin də partiya İlyas İsmayılovun adı ilə bağlıdır və onu rəhmətlə anıram. İlyas bəy şəxsən tanıdığım, münasibətimiz olan bir şəxs idi.

Əminəm ki, İlyas bəyin əmanəti bundan sonra da etibarlı əllərdə olacaq. Seçəcəyiniz yeni rəhbərlik, yeni sədr İlyas bəyin qoyduğu ənənəni davam etdirəcək.

Bizim partiyalarımız ideoloji baxımdan fərqli cəbhələrdə olsa da, mən əminəm ki, Azərbaycan naminə, millətimiz naminə, milli məsələlərdə nəinki Ədalət Partiyası, Azərbaycanda olan heç bir partiya ilə fikir ayrılığı olmayıb və olmayacaq da. Mən əminəm ki, dövlətimiz, millətimiz naminə hansına bir məsuliyyəti biz bir yerdə üzərimizə götürəcəyik.

Bir daha hər birinizə uğurlar arzulayıram. Yeni seçiləcək sədrə və rəhbərliyə fəaliyyətlərində uğurlar arzulayıram. Mən MTK sədrinin hesabatını çox diqqətlə izlədim, arzu edirəm ki, növbəti qurultayınızın maddi hesabatında min manatlarla yox, yüz min manatlarla hesabatlar səsləndirəsiniz! Azərbaycanda siyasi partiyaların ən böyük problemlərindən biri maliyyə məsələsidir. Dünyada yeni bir siyasi dövr başlayır, partiyaların əhəmiyyəti də gələcəkdə artacaq. Mən çox səmimi bir arzu elədim, inşallah bu arzunu da görərik.



### "Yeni xətt" Siyasi Tədqiqatlar Mərkəzinin sədri Ramil Hüseynovun çıxışı

- Hörmətli qurultay iştirakçıları! Dəyərli qonaqlar! Sizi salamlayıram.

Mən jurnalist kimi İlyas bəylə görüşmüşdüm. Ondan müsahibə almağa getmişdim. Söhbətimiz əsnasında dedim ki, mənim də Tovuzda qohumlarım var. Soruşdu hansı tərəfdə? Ona detallı şəkildə məlumat verdim. Dedi, onda siz niyə bu partiyada iştirak etmirsiniz, bu partiyaya gəlmirsiniz? Təbii ki, İlyas bəy bir bölgənin adamı deyildi, İlyas bəy böyük bir şəxsiyyət idi.

(Davamı səh. 6-da)

# Ədalət Partiyasının IX qurultayı



(Əvvəli səh. 5-də)

Bir dəfə mən efirdə səsləndirmişdim ki, bizdə vəzifədən çıxan şəxslər özünə hörmət qazana bilmirlər. Vəzifədə olanda hörmət qazanılır, o da təbii ki sünidir. Amma vəzifədən çıxandan sonra İlyas müəllim bəlkə də bir neçə şəxslərdən biri olub ki, özünə hörmət qazanıb. O da onun həmişə ədalətli və prinsipial mövqedə olduğu üçün olub.

İlyas bəy bizim dövlətçilik ənənələrinə həmişə sadiq olub. Hesab edirəm ki, bu partiya bundan sonra da İlyas müəllimin qoyduğu yolu davam etdirəcək.

Bizə ədalətli həmrəylik lazımdır. Biz bu həmrəyliyi qazanmışıq, milli birliyi qazanmışıq. Dünyada baş verən proseslər, qlobal güc və mövqelərin möhkəmləndirilməsi uğrunda gedən savaşlardan qalib çıxmaq üçün bizim dövlət də öz daxilindəki milli həmrəyliyi qoruyub saxlamalıdır. Ona görə də hesab edirəm ki, bundan sonrakı fəaliyyətinizdə də həmişə Azərbaycan dövlətçiliyi uğrunda mübariz olacaqsınız. Əslində siyasi partiyaların birinci mövqeyi ondan ibarətdir ki, ölkənin siyasi



dayaqlarının möhkəmləndirilməsində iştirak etsinlər.

Mən bu yolda Sizə uğurlar aru edirəm.

### Şair Mübariz Məsimoğlunun çıxışı

- Hörmətli xanımlar və bəylər!

Bu möhtəşəm qurultayda hamınızı salamlayıram. Mən ictimai bir insan kimi bu məclisdə iştirak edirəm. Sevinirəm ki, İlyas müəllimdən sonra bu partiya dağılmadı, əzəmətini qoruyub-saxladı, belə bir möhtəşəm Qurultaya start verildi. Qanunçuluğun bütün tələblərinə riayət edilir. Qarşıda xeyli çətinliklər var, mən bilirəm. Təkcə bu partiyanın yox, ümumiyyətlə, dövlətimizin vətənimizin qarşısında xeyli çətinliklər durur. Dünyada fərqli proseslər gedir. Rusiya-Ukrayna müharibəsi fövqündə mütləq dünyanın simasının dəyişikliyi olacaq. Əgər Rusiyanın məğlubiyyəti baş verərsə, dünyada hesab edirəm ki, demokratik dəyərlərin yayılması sürətlənəcək. Biz bu istiqamətdə getməliyik. Amma bir partiya olaraq burada əyləşənlərin hər birinin yəqin ki, seçim hüququ vardır - sol mərkəzçi seçim. Hesab edirəm ki, alqışlanası seçimdir. Amma mən bir şeyi deyim ki, Azərbaycanda hər şey hüquqa tabe olmalıdır. İstər sol mərkəzçi olsun, istər sağ mərkəzçi olsun, hüquq olmayan yerdə nə sol mərkəz, nə də sağ mərkəz mövcud ola bilməz. Hüquq əsas şərt olmalıdır.

Hüquqdan muğayat olmaq lazımdır. Hüquq olmayan yerdə heç nə yoxdur.

Sizə uğurlar diləyirəm!

### Dialoq və İnkişaf Naminə” İctimai birliyinin sədri Çingiz Bayramovun çıxışı

- Hörmətli Qurultay iştirakçıları!

Hər birinizi rəhbəri olduğum Qeyri-Hökumət Təşkilatı adından salamlayıram. Qurultayınız çox möhtəşəm keçir, uğurlu olsun! Buradan da sizin partiyanın lideri olan və Azərbaycan dövlətçiliyinin bərpasında iştirak etmiş, böyük alimimiz, professor İlyas İsmayılova Tanrıdan rəhmət diləyirəm.

Məndən əvvəlki natiqlər qeyd etdi, çox yaxşı ki, bu partiya fəaliyyətini davam etdirir, dağılmadı və inanıram ki, daha da güclü olacaq. Çünki İlyas müəllimin qoyduğu xətt gözəl xətdir, ədalətli yoldurir. Burada məruzə edən Mütəllim müəllim çıxışında da qeyd etdi ki, bizim hədəfimiz cənab Prezidentin qoyduğu, apardığı yoldur. Türk dünyası bizim vahid ailəmizdir. Bu yolda mən bir Qeyri-Hökümət Təşkilatının rəhbəri kimi sizə cəsarət arzu edirəm, çünki bizim başqa bir yolumuz yoxdur.

Qurultayın işinə uğurlar arzulayıram. Gələcək, seçiləcək rəhbərə də QHT rəhbəri kimi işlərində uğurlar arzulayıram.

### "Turan Tovuz" FK-nın İdarə Heyətinin üzvü Yaşar Sultanovun çıxışı

-Hörmətli Qurultay iştirakçıları! Hər birinizi salamlayıram!

Bir vətəndaş, azərbaycanlı kimi xüsusi rəğbət bəslədiyim Ədalət Partiyasının bu günkü, növbəti Qurultayında iştirak etmək mənim üçün şərəfdir. Mən uşaq vaxtımdan tanıdığım, bu partiyanın qurucusu, yaradıcısı, bizim üçün dahi ağsaqqal, ziyalımız olan İlyas müəllimin yaratdığı bu möhtəşəm siyasi əsərin bu axarında iştirak eləmək, sözün həqiqi mənasında çox şərəfli və qürurlu bir haldır.



Hazırda Azərbaycan ağır təlatümlərin episentrindədir. Hamımız görürük ki, çox ağır təzyiqlər altında indi Respublikamızın uğurlu siyasi vəziyyətini, siyasi mübarizəsini görürük. Digər aparıcı dünya qurumları arasındakı mövqeyi də təqdir olunandır. Bu gün hər kəsin Azərbaycan və xalq naminə birliyi olduqca vacibdir. Hesab edirəm ki, bu baxımdan Ədalət Partiyasının siyasi kursu onun sosial-iqtisadi profilinə tam cavab verir. Buna görə də tərəfdarlarının onun sıralarında birləşib ölkənin vahid siyasi kursunda iştirak etmək imkanı əldə edib. Bu baxımdan bizim ümumxalq birliyimiz çox vacibdir. Hər birinizi bu birliyə çağırıram və güman edirəm ki, Ədalət Partiyası özünün dəsti-xətti ilə bu yolda ölkəyə xüsusi töhfəsini verəcəkdir.

Sağ olun!

### Jurnalist Nurəddin Ədiloğlunun çıxışı

- Məndən əvvəl qonaq qismində bura dəvət olunanların sözlərinə, fikirlərinə şərik olaraq Qurultay nümayəndə-



lərinə uğur arzulayıram.

Məni, Mübariz qardaşımın dediyi kimi, ilk növbədə bura gətirən İlyas İsmayılovun şəxsiyyətinə hörmət hissi olub. Mən onunla həyatda iki dəfə canlı təmasda olmuşam. İlk dəfə həmsədr olduğu dövrlərdə, “Hüriyyət” qəzetində işlədiyim vaxtda, sonra isə Aydın Canıyevin redaktoru olduğu “Geopolitika XXI əsr” adlı qəzetinin redaksiyasında görüşmüşəm. Onun müdrik xarakterinə ilk andan heyran qaldım. Məndən soruşdu ki, hansı rayondansan? Dedim, Masallıdanam, özüm də “Masallı” qəzetinin redaktoruyam. Yanında iki nəfər siyasi xadimin dayanmasına baxmayaraq dedi, bizim adımızdan masallıların Novruz bayramını təbrik eləyərsiniz. Novruz bayramı ərəfəsi idi.

Haqqında çəkilən filmə də bu yaxınlarda baxmışam. O, həqiqətən, uşaqla uşaq, böyüklə böyük idi. Mən onu ilk görəndən elə bilirdim ki, neçə illərdir tanıyıram. Hətta elə bilirdim ki,



gənc illərindən tanıyıram. Adamda belə bir təəssürat yaradırdı. Orada yazılıb ki, “Ən böyük fəzilət ədalətdir”. Həqiqətən də, indi cəmiyyətimizdə həqiqət və ədalətli bir adam kimi görünənlər çoxdur. Amma ədaləti, həqiqəti daxilən deyən adam yoxdur. İlyas müəllim həm zahirən ədalətin içində oldu, həm də mənəviyyat cəhətdən. Onun prezident seçkilərində namizədliyini verdiyi vaxt etdiyi çıxışı bugünkü gün kimi mənim yadımdadır.

Onun əsas qabartdığı məsələlərdən biri də, yerinə düşərmi-düşməzmi bu fikri deyirəm, yəni yaşımın elə dövrüdür ki, həqiqəti demək lazımdır. Deyirdi ki, əgər seçilsəm, regionçuluqdur, yerlibazlıqdır, korrupsiyadır belə faktların əleyhinə olacam. Baş Prokuror olanda da, Ədliyyə naziri olanda da Azərbaycanda hamı yaxşı bilirdi ki, İlyas İsmayılov nə yeribazlıq edib, nə də digər işlərlə məşğul olub.

Mən də sizin partiyaya sevgiylə-sayğıyla uğurlar arzu edirəm.

İlyas müəllim insanların qəlbində öz heykəlini sağlığında ucaltmış şəxsiyyətlərdəndir. Mən də o insana olan ehtiram hissi ilə bu məclisə gəlmişəm. Baxmayaraq ki, dünyasını dəyişib.

Sizə uğurlar arzu edirəm.

### Ədalət Partiyasının IX Qurultayına hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü

Elman Bağırovun çıxışı

Burada bəzi problemlərdən danışıldı. Qurultay öncəki fikir ayrılıqları hər yerdə mümkündür. Hətta qonaqlardan biri dedi ki, partiya lideri həyatdan gedəndən sonra əksər partiyalar bağlanır. Çox gözəldir ki, biz bütün bu çətinlikləri əzmlə aşdıq. Hər birinizə təşəkkür edirəm ki, bu gün buradasınız, qurultayda iştirak edirsiniz. Təfərrüata varmadan bir atalar məsəlini xatırlatmaq istəyirəm: “kələklə gələn, küləklə gedər”. Nə oyun quruldusa, çox şükür, yenə də təmizlər qaldı ortada.

Biz partiyadan danışanda İlyas müəllimin haqqında söz açmamaq mümkün deyil. Mən özüm 45 yaşıma kimi heç bir partiyanın üzvü olmamışam. Xalq Azadlıq Hərəkatı dönəmində tələbə idim, Texniki Universitetdə oxuyurdum. Azadlıq hərəkatında, bəlkə də cəbhəçilərdən, müsavatçılardan çox faydalı olmuşam. Amma heç bir partiyanın üzvü olmadım. İlyas müəllimlə şəxsi görüşümüzdən sonra partiya yolunu seçdim. Mən Rusiyada hüquq fakültəsində oxuyurdum, İlyas müəllim mənim müəllimlərimi tanıdığını dedi.

Bu heyrətamiz idi. Onunla yaranan bağlantıdan sonra mən bu partiyaya gəldim. Gəldiyim gündən də İlyas müəllimin əhatəsində çox gözəl yoldaşlar gördüm. İlyas müəllimin bizə qoyub getdiyi bu mirası və qazandırdığı dividenti xərcləməməliyik, üstünə gətirməliyik.

Yəni ki, daha da əzmlə bu partiyanın adını ucaltmalı, ölkənin ictimai-siyasi həyatında Ədalət Partiyasının reytinqini qaldırmalıyıq. Buna görə İlyas müəllimin də ruhu şad olar.

Təşəkkür edirəm.

(Davamı səh. 7-də)

# Ədalət Partiyasının IX qurultayı

(Əvvəli səh. 6-da)

**Ədalət Partiyasının Tovuz Rayon Təşkilatının sədri Məcid Məmmədovun çıxışı**

Hörmətli Qurultay iştirakçıları!

Tovuz rayon təşkilatı adından bütün Qurultay nümayəndələrini, qonaqları hər birinizi salamlayıram! Qeyd etmək istəyirəm ki, bu Qurultayda İlyas müəllimin adını hər hansı formada anmamaq qeyri-mümkündür. Mən İlyas müəllimə və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda eləyən Şəhidlərimizə rəhmət diləyirəm. İlyas müəllim həm də çox böyük ictimai-siyasi xadim və dövlət adamı idi. Onun seçiciləri qarşısındakı çıxışları həmişə çox qısa, aydın olurdu. Üç məsələni İlyas müəllim dövlətimizin prioritet məsələsi kimi həmişə qeyd edirdi. Birincisi, Qarabağ məsələsi idi, çox şükürlər olsun ki, həll olundu. İkincisi, korrupsiya və rüşvətxorluqla bağlı məsələ idi, üçüncüsü və ən vacibi İlyas müəllimin qeyd etdiyi kimi yerlibazlıq, tayfabazlıq problemidir. Mən arzu edirəm ki, bu gün İlyas müəllimin ideyaları ətrafında birləşən partiya üzvlərimiz bu xətti davam etdirsinlər



və buna da əminəm! Hər birinizə həyatınızda, ailənizdə uğurlar arzulayıram və son dövrlərdə partiyamız daxilində baş verən hadisələrdə çox cəsarətli çıxışları ilə birlik nümayiş et-



dirən hər bir kəsə təşəkkürümü bildirirəm. Partiyamızın ağsaqqalı və qurultaya sədrlik edən Rahim müəllimə xüsusi təşəkkürümü bildirirəm, çox böyük əziyyəti var, deməmək mümkün deyil. Təşkilat Komitəsinin sədri kimi Mütəllim müəllimin və Mərkəzi Nəzarət Təftiş Komitəsinin hesabatını təqdim edən Çingiz Abbasovun məruzələrini müsbət qiymətləndirirəm.

Hər birinizə uğurlar arzu edirəm.

Məruzə və çıxışlardan sonra partiya sədrliyinə səsvermə keçirildi.

Mütəllim Qara oğlu Rəhimli Ədalət Partiyasının sədri seçildi.

**ƏDALƏT PARTIYASININ SƏDRİ SEÇİLMİŞ MÜTƏLLİM RƏHİMLİNİN YEKUN MƏRUZƏSİ**

Hörmətli Qurultay nümayəndələri!

Mənə göstərdiyiniz yüksək eti-



mada görə, hər birinizə dərin təşəkkürümü bildirirəm.

İlyas İsmayılov kimi siyasi xadimdən sonra Ədalət Partiyasına rəhbərlik etmək böyük məsuliyyət yaradır. Biz partiyamızın illərlə birlikdə formalaşdırdığımız siyasi simasını qorumalı, onu inkişaf etdirərək gücləndirməliyik. Bunun üçün ilk növbədə ideoloji, siyasi və təşkilati fəaliyyəti heç bir zaman yubatmamalıyıq. Qurultaydan sonra bütün rayon təşkilatlarında konfranslar keçirilməli, çatışmazlıqların aradan qaldırılması, fəaliyyətimizin daha aktiv şəkildə davam etdirilməsi üçün müvafiq qərarlar qəbul edilməlidir. Konfranslarda partiya rəhbərliyinin iştirakı təmin olunmalıdır.

Ədalət Partiyasının Azərbaycanın siyasi reallığında uğurlu inkişafı üçün realist strategiya formalaşdırmalıyıq və düşünürəm ki, o aşağıdakı istiqamətlərdə qurula bilər:

1. Biz ilk növbədə Azərbaycan siyasi kontekstinin düzgün anlaşılmasını təmin etməliyik.

Mövcud sistemin dinamikasını dərk etmək və buna adekvat siyasət formalaşdırmaq tələb olunur. Dövlət və siyasi qurumlarla qarşılıqlı əlaqə mexanizmlərini formalaşdırmaq lazımdır. Açıq konfrontasiyadan çox, konstruktiv təkliflərlə irəliləmək daha çox fayda verə bilər.

Milli təhlükəsizlik və xarici siyasət prioritetlərinə uyğun müstəqil narrativ yaratmaq daha məqsədəuyğun hesab olunur. Xüsusilə, Qarabağ mövzusunda aydın və dövlət xəttinə zidd olmayan pozisiya sərgiləmək vacibdir.

2. Partiyadaxili islahatlar həyata keçirməliyik

Bunun üçün gənc və peşəkar kadrlar cəlb ediləcək. 30-45 yaşlı, sosial mediada aktiv, ictimai nüfuzu olan şəxslərin partiyaya üzv olması təmin ediləcək.

Partiya üzvlərinin ideoloji siyasi analitika, media kommunikasiyası sahəsində maariflənməsi üçün çalışacağıq.

3. Seçici bazasının genişləndirilməsi üçün ardıcıl iş aparılacaq.

Birincisi, kənd və regionlarda yerli problemlərə konkret həllər - suvarma, kənd təsərrüfatı subisidiyaları, yol-iaşə və s. təklif edəcəyik.

Nüfuzlu soylar və yaxud liderlərlə əməkdaşlıq qurulacaq, onların Ədalət partiyasına üzv olması və yaxud tərəfdarına çevrilməsi təmin ediləcək.

Şəhər əhalisinin problemləri qaldırılacaq, onları narahat edən başlıca məsələlərin həlli ilə bağlı konkret təkliflər hazırlanacaq.

4. Kommunikasiya strategiyası gücləndiriləcək və alternativ media yaradılacaq.

Facebook, İnstagram, TikTok, Telegram kanalları ilə rəsmi mediadan asılı olmayan informasiya yayımı həyata keçiriləcək. Podcast və debat platformalarının hazırlanmasını təşkil etməklə, "Ədalət" adlı YouTube kanalının formalaşdırılması icra olunacaq.

5. Hakimiyyətə gedən yol üçün real addımlar atılacaq.

Bələdiyyə seçkilərində daha çox partiya təmsilçilərinin iştirakını təmin etməliyik. Bununla əyalətlərdə daha çox nüfuz qazana bilərik.

Müxalifət blokları ilə taktiki ittifaqlar barədə danışıqlar qurmaq mümkündür. Lakin digər partiyaların kölgəsində qalmamaq əsas hədəfimiz olmalıdır.

Ədalət Partiyası "dəyişiklik təklif edən, lakin radikallıqdan tamamilə uzaqdır" imicini formalaşdırsa, sabit inkişaf şansı qazanacaq. Əsas diqqət konkret sosial-iqtisadi təkliflər, gənclərlə ünsiyyət və regionlarda görünən fəaliyyət olmalıdır. Real siyasət təkəbbür deyil, balans sənətidir.

Sizin hər birinizə bu yolda uğurlar arzulayıram!

***"Tovuz"***

# MƏQSƏDƏ ÇATMAĞIN AÇARI

***Hansısa məqsədi seçərkən uğursuzluqla üzləşəndə və arzuların puça çıxdığını görəndə, o yoldan çəkinərək başqa işlə məşğul olmağın adı varmı? Əlbəttə, yox. Bircə adamda can atdığı məqsədə yalnız maraq dairəsində olduğuna görə çatmayıb. Bunun üçün öz üzərinə öhdəlik götürmək lazımdır. Əslində müxtəif adamların uğur tarixcəsini araşdırarkən, həyatın, keyfiyyət baxımından, yüksəldilməsi prosesində ciddiliyin fəal və dəyərli ehtiyatı olaraq, hətta istedadı belə üstələdiyi müəyyən olunur.***

Ehtiyacınız olan bacarıqlara onsuz da sahibsiniz - sadəcə hansı aspektdən baxacağınızı bilməlisiniz. Mikro biznes (əksər hallarda cəmi bir nəfər tərəfindən işlədilən müəssisələr) insan cəmiyyətinin



yarandığı gündən etibarən mövcuddur. Bununla yanaşı, dövrümüzün gətirdiyi yeniliklər bir insanın nə qədər tez işə başlaya və bir qrup müştəriyə çata biləcəyi ilə əlaqədardır. Biznes qurma əməliyyatı müasir dövrdə daha sürətli və ucuzdur. Bunun üçün aşağıdakı 3 addımı yerinə yetirmək lazımdır.

1. yaxşı bacardığınız bir iş ilə digər insanların marağını çəkən şey arasındakı kəsişməni təmsil edir. Bu kəsişmə nöqtəsi sizin görməli olduğunuz işi göstərir. Bunu müəyyənləşdirərək azadlıq və dəyəri inkişaf etdirə bilərsiniz.

2. Bir biznes layihəsində, xüsusilə də sizi həyəcanlandıran bir layihədə uğur qazanmaq üçün sahib olduğunuz, başqalarına kömək edə biləcək bütün bacarıqlar və bu bacarıqların kombinasiyası iş haqqında daha diqqətlə düşünməyinizə kömək edir.

3. Sehrli düstur

İlk iki fikri bir araya gətirmək mikro bizneslər üçün o qədər də gizli olmayan bir tərifi ifadə edir: Həvəs və ya bacarıq + faydalılıq = müvəffəqiyyət.

Qurmağı planlaşdırdığınız biznesin uğur qazanması üçün 3 əsas şeyə ehtiyacınız var:

1- Sata biləcəyiniz bir məhsul,

2- Pul ödəməyə hazır olan müştərilər,

3- ödəmə sistemi.

Bu qədər sadə.

Sahibkar kimi düşünməyə başladıqda iş ideyalarının hər yerdən gələ biləcəyini görəcəksiniz. Belə düşündükdə, getdiyiniz hər yerdə mikro biznes layihələri üçün fürsətlər qarşınıza çıxacaq. Aşağıdakı ideyalar fikirləriniz üçün ilham mənbəyi ola bilər:

- Bazardakı qeyir-məhsuldarlıq.
- Yeni texnologiya və ya fürsətlər.
- Dəyişən sahələr.
- Bölünən və ya bənzər layihələr.

Yeni bir biznesə başlamaq üçün altı addım:

1. Məhsulunuzun və ya xidmətinizin nə olduğuna qərar verin.
2. Bir veb sayt qurun, hətta çox sadə bir veb sayt qurun.
3. Bir təklif formalaşdırın.
4. Ödəniş sisteminizin olduğundan əmin olun.
5. Təklifinizi dünyaya tanıdın.
6. 1-ci addımdan 5-ci addıma qədər yazılanları öyrənin, sonra isə təkrarlayın.

Heç vaxt zamanın on faizindən çoxunu çətinliyə, doxsan faizini isə onun həllinə sərf etməyin. Daha da vacib olan bir amil, xırdalıqlara fikir verməK...və yadda saxlamaqdan ibarətdir: əslində bunların hamısı, elə xırdalıqdan başqa bir şey deyil.

***İlkin Sadıqzadə,***
***"SOCOL" MMC-nin direktoru***

# İSA CAVADOĞLU KÖÇDÜ DÜNYADAN



***Tovuz ədəbi mühitinin görkəmli nümayəndəsi, şair, tanınmış pedaqoq İsa Cavad oğlu İsayev (İsa Cavadoğlu) 95 yaşında vəfat etmişdir.***

İsa Cavad oğlu İsayev 1931-ci il mayın 12-də Əyyublu kəndində anadan olmuşdur.1954-cü ildə H.Zərdabi adına Gəncə Pedoqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirmiş, müəllim işləməklə yanaşı ədəbi yaradıcılıqla da ciddi məşğul olmuşdur. Ötən əsrin 60-cı illərindən əksər dövri mətbuatda, müxtəlif toplularda şeirləri dərc olunmuş, bəzi nümunələr dərs vəsaitlərinə, dərs kitablarına daxil edilmişdir. "Mən ulu tarixəm", "Ya qismət", "Ömrün yolları", "Daha payızdı", "Düşüncələr", "Məktəbə qayıdan oğlan", "Ata yurdum", "Tənha qoca", "Ömür karvanı" adlı kitabları çap olunmuş və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Şeirləri xalq arasında şifahi şəkildə də geniş yayılmışdır. İsa Cavadoğlu Azərbaycan Yazıçılar Birliyinin və H.Bozalqanlı adına "Varislər"Ədəbi Birliyinin üzvü idi. O,uzun illər "Varislər! Ədəbi Birliyinə rəhbərlik etmişdir.

Şair-pedaqoq ömrü boyu öz doğma elində, Tovuz rayonunun Əyyublu kəndində yaşayıb-yaradıb. İsa Cavadoğlunun 10-dan çox kitabı çap olunub. Şairin tələbələri, İsa Cavadoğlunu Vətəninə,öz kəndinə, elinə bağlı bir insan kimi tanıyırdılar.

Onun poeziyasında vətəndaşlıq mövqeyi, müstəqilliyimizin qüruru hiss olunur. Eyni zamanda, yaradıcılığında müəllim olduğu hiss edilir, şeirlərində nəsihətamizlik duyulur.

İxtisasca dil-ədəbiyyat müəllimi olmuş şairin son illər yaradıcılığında peşəsindən və həyat təcrübəsindən irəli gələn öyüd-nəsihət motivləri üstünlük təşkil edir.

Ədəbiyyata ötən əsrin 60-cı illərində gələn İsa Cavadoğlunun yaradıcılığında Vətənin, ülvi duyğuların tərənnümü, o cümlədən aşiq poeziyası örnəkləri xüsusi yerə sahibdir.

İsa Cavasdoğlu rayonumuzun sayılıb-seçilən pedaqoqlarından, nurani ağsaqqallarından, tutarlı qələm əhlindən, vətənpərvər insanlarından biri idi.Yaşından asılı olmayaraq hər kəslə dostluq edən şəxsiyyət idi. Tovuzlular fəxr edə bilərlər ki,İsa Cavadoğlu kimi vətənini, elini-obasını sevən və tərənnüm edən ziyalısl varıydı.

İsa Cavadoğlunun əziz xatirəsi onun tanıyanların,dostların qəlbində daima yaşayacaqdır.

Allah rəhmət eləsin!

## OLMASA

Bu ulu dünyanı hardan görərdim,
Bir ulu əcdadım, binam olmasa.
Bu ulu dünyanı hardan duyardım,
Doğma, əziz atam-anam olmasa.

Hardan bilinərdi gəlib keçdiyim,
Minbir nemətindən yeyib-içdiyim,
Sonalar içindən sevib-seçdiyim,
Qaragöz dilbərim - sonam olmasa.

Necə vurulardım gül-çiçəyinə?
Hardan inanardım gələcəyinə,
Dünyanın ədəbi güləcəyinə,
Gələcək nəsilim-balam olmasa.

Necə vəhy edərdim uyğularımı?!
Sonsuz nəşələri, qayğılarımı?
Ülvi hisslərimi, duyğularımı,
Dilimdə bal kimi kəlam olmasa.

İsa bu dünyaya boş uya bilməz,
Duyğusuz bir qəlbi daşıya bilməz,
Bu ulu dünyamız yaşaya bilməz,
İnsanda əqidə, inam olmasa.

## Yatma

Gəldin bu dünyaya qəmsiz, kədərsiz,
Gəlir qəm karvanı, oyaq ol, yatma!
Necə ki, babalar mayaq olubdu,
Sən də gələcəyə mayaq ol, yatma!

Demə ki, bu işi görərəm sabah,
Sən hardan bilirsən, ay yazıq fəllah,
Sabaha nə qismət eyləyib Allah,
Zülmətə yol açan çıraq ol, yatma!

Ölüyə bərabər sayılır yatan,
Yaşayır aləmdə arzuya çatan.
İsanı eşitsən, ay dərdə batan,
Çalış ətalətdən uzaq ol ,yatma!

## Dünyada

Ayırla bilmirəm düşüncələrdən:
Bu qədər sirrlər nədi dünyada?
Alim də heyrətdə, şah da heyrətdə,
Hərə öz sözünü dedi dünyada.

Dayaza dayazdı, dərinə dərin,
Acıdan asıdı, şirindən şirin,
Nəhəng yuvasıdı xeyirin, şərin,
Seç görüm yaxşını, bədi dünyada?!

Sualdı hər ulduz, hər çiçək sənə,
Qəlb qoyub hərənin bir cür köksünə,
Kimi çaldı, çapdı, kimi əksinə,
Hər kəs qismətini yedi dünyada.

Hər şey duymağa can atır ürək,
Keçənlər bilmədi, biz nədən bilmək:
Mürğün bədənində sonuncu lələk,
Neçənci Süleyman idi dünyada?

Zaman öz atını çağdığı yerdə,
Tozundan hər yana çəkilir pərdə.
Kim hardan bilər ki, filan əsrdə,
İsa da varıymış gidi dünyada!

## Gəlmişik

Elə bilmə dünyadan
Doymaq üçün gəlmişik,
Bu sehrikar aləmi
Duymaq üçün gəlmişik.

Bir-bir ötən günləri,
Ömrü bitən günləri,
Düşüb itən günləri,
Saymaq üçün gəlmişik.

İsa olmaz pərişan,
Tez boşalar, tez daşan.
Ömürümüzdən bir nişan,
Qoymaq üçün gəlmişik!

## Həyatda

Yarandıq, yaşadıq biz də bir müddət,
Yaxşı da, yaman da gördük həyatda.
Taleyin əlilə meyvələrindən
Acı da, şirin də dərdik həyatda.

Yaşamaq yolunda durmayıb bekar,
Gah şikar ovladıq, gah olduq şikar.
Bir az müəmmalı, bir az aşikar,
Ölümlə oyuna girdik həyatda.

Gözələ vurulduq, vara vurulduq.
Çamurda bulandıq, çayda durulduq,
Gah qurub yaratdıq, gah uçurulduq.
Cürbəcür sərgilər sərdik həyatda.

Bir azı nəşəli, bir azı yorğun,
Bir azı axarlı, bir azı durğun,
Bir azı qorxusuz, bir azı qırğın,
Ömür karvanını sürdük həyatda.

Vaxt çatdı, ay İsa, bilmədik necə,
El-oba yığılıb vida deyincə,
Qaldıq evimizdə qonaq bir gecə,
Bir canı yaşayıb verdik həyatda.

## Gərək

İndi ki, dünyaya gəldin bir dəfə,
Şəlalə misilində axasan gərək.
Ya da parçalayıb qara buludu,
Şimşək timsalında çaxasan gərək.

Nifrətin Tomrisin nifrəti kimi,
Qeyrətin Koroğlu qeyrəti kimi,
Heyrətin Şeyx Sənan heyrəti kimi,
Çürük xurafatı yıxasan gərək.

Ürəkdə min arzu, min muraz olur,
Onsuz da ay İsa ömür az olur.
Kənardan baxmaqnan alçatmaz olur.
Zirvəyə zirvədən baxasan gərək.

## OLDUM

Ulu dünya, ulu dünya.
Gəlib səndən keçən oldum.
Sərin-sərin çeşmələrdən
Şirin-şirin içən oldum.

Çələng hördüm çiçəklərdən,
Söz topladım ürəklərdən,
Ceyran gözlü mələklərdən,
Birin sevib, seçən oldum.

Gələcəyin marağılə,
Səhərlərin sorağılə.
Zaman adlı orağ ilə
Günlərimi biçən oldum.

Uçub getdi şirin çağlar,
Kitabını İsa bağlar,
Bu ünvanı kim soraqlar?-
Dəstələnib köçən oldum.

## MƏN

Taleyim belədir qoca dünyaya
Fikirsiz, duyğusuz gəlməmişəm mən.
Hərdən ağlayanda, hərdən güləndə
Mənasız ağlıyıb gülməmişəm mən.

Düz yola səsələyib yoldan azanı
Demişəm incitməz insan insanı,
Şan-şöhrət uğrunda heç vaxt vicdanı,
İblislə yarıya bölməmişəm mən!

Haqqı, ədaləti uca sanmışam,
Bu yolda od tutub necə yanmışam…
Bəzən tənə sözlə yaralanmışam,
Of deyib, göz yaşı silməmişəm mən.

Qəlbimdə məhəbbət, ülfət inamı,
Danışıb gülmüşəm güləndə hamı.
Könül bağladığım şeiri, ilhamı,
Ucuz qazanc yolu bilməmişəm mən.

Arzu çəmənlərim çiçək-çiçəkdir,
Hər çiçək uğurlu bir gələcəkdir.
İsayam, haqq səsim yüksələcəkdir,
Neçə ki, diriyəm ölməmişəm mən.

## Ya qismət

Min arzu eylərəm, min cürə xəyal,
Birinə çatmayam, çatam, ya qismət.
Birinci addımı salamat atdım,
İkinci addımı atam, ya qismət.

Sehrkar dünyanın toruna düşdüm,
Aldandım üzünə, boyuna düşdüm,
Hiyləgər zamanla oyuna düşdüm,
Uduzam ya qismət, udam, ya qismət.

İsa da sirlərin axtarışında,
Minillik qar yatır zirvə başında.
Təzə bağ salıram əlli yaşında,
Nübarın dadmayam, dadam, ya qismət.

## İNSAN KİMİ

Günəşin öz yeri, Ayın öz yeri,
Dünyaya nur gəlib, nur, insan kimi.
Sən də yaşayırsan insan adıyla,
Otur insan kimi, dur insan kimi.

Bir ömür payın var-yoxdur ikinci,
Hamıya belədir, nə küs, nə inci.
Vaxt keçir yubanma, axtar, gəz inci,
Yarat insan kimi, qur insan kimi!

İsa, vətən üçün, el üçün yaşa,
Mənasız boylanma hər dağa, daşa.
Xeyirxah niyyətlə ömrünü başa-
Yetir insan kimi, vur insan kimi.

## Allah rəhmət eləsin!

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və İcra Hakimiyyəti Aparatının kollektivi

**İsa Cavadoğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və İcra Hakimiyyəti Aparatının kollektivi

**Məzahir Alıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov və İcra Hakimiyyəti Aparatının kollektivi,keçmiş iş yoldaşları

**Vaqif İbrahim oğlunun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Qafil Baxşıyev və Tovuz Rayon Məhkəməsinin kollektivi, tanınmış şairlər

**İsa Cavadoğlunun və Məzahir Alıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirlər.

Maarif Hüseynov və Tovuz Rayon Prokurorluğunun kollektivi, tanınmış şairlər

**İsa Cavadoğlunun və Məzahir Alıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

Habil Əmiraslanov və Tovuz Rayon Polis Şöbəsinin kollektivi, tanınmış şairlər

**İsa Cavadoğlunun və Məzahir Alıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

Akif Əhmədgil Çingiz Qəribli, Ramiz Çıraqlı, Elməddin Əliyev, Maarif Həsənoğlu, tanınmış şairlər

**İsa Cavadoğlunun və Məzahir Alıyevin**

vəfatından kədərləndiklərini bildirir və mərhumların ailələrinə dərin hüznlə başsağlığı verirlər.

---

Çingiz Qəribli ailəsi ilə birlikdə Ramin ,Saləddin ,Elnar Məmmədov qardaşlarına,anaları

**Həmayə Əjdər qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**
Çingiz Qəribli

**Ünvanımız:**
Tovuz şəhəri, Şəhriyar küçəsi, 3.
Telefon: (022) 312-35-23
tovuz.gazeti@mail.ru

Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlar və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələmiş və "Son dakka" mətbəəsində çap olunmuşdur.
**Sifariş:** 458
**Tiraj:** 1500